# ÜMUMMİLLİ LİDERLİK MİSSİYASININ MİQYASI




**Bəşəriyyət bütün tarixi boyu dahilərin çiyinləri üstündə irəliyə doğru inkişaf etmişdir. Böyük dühalar mənsub olduqları ölkənin gələcək inkişaf yollarını əvvəlcədən görə bilmiş, xalqı həmin ali məqsədə çatmaq üçün mübarizəyə səfərbər etməyi bacarmışlar. Uzaqgörənlik, möhkəm siyasi iradə, aydın milli mövqe və mübarizə əzmi belə tarixi şəxsiyyətlərin əsas xüsusiyyətlərini təşkil edir.**

Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əliyev XX əsrin ikinci yarısından etibarən mənsub olduğu xalqın tarixi müqəddəratında həlledici rol oynamışdır. O, hələ sovet hakimiyyəti illərində Azərbaycan xalqının milli mənafelərinin qorunub saxlanılması üçün böyük addımlar atmışdır. Heydər Əliyev sovet dövründə Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldıran görkəmli dövlət xadimidir. Məhz onun xidmətləri sayəsində Azərbaycan keçmiş Sovetlər İttifaqında ən inkişaf etmiş ölkələrdən birinə çevrilmişdir. Azərbaycanın dövlət müstəqilliyinin qurulması və möhkəmləndirilməsi də Heydər Əliyevin adı və mübarizəsi ilə üzvi surətdə bağlıdır. Bütün bunlara görə Heydər Əliyev Azərbaycan xalqının ümummilli lideri kimi böyük tarixi ad qazanmışdır.

Məlumdur ki, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyətini bir neçə mühüm epoxaya bölmək olar: Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003). Bu cür inkişafda olan 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, ən çətin məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr əslində çox mənalı və ibrətamiz məktəbdir. Bu, beynəlxalq siyasi aləmdə və Azərbaycanda özünəməxsus xüsusi yeri və əhəmiyyəti olan, tarixə düşən, hər yeni tarixi mərhələ üçün aktual və müasir səslənən, həmişəyaşarlıq qazanmış Heydər Əliyev dövlətçilik məktəbi kimi özünü təsdiq etmişdir. Eyni zamanda, Heydər Əliyevin qiymətli siyasi irsi: məruzələri, nitqləri, çıxışları, imzaladığı tarixi qərarlar və sərəncamlar, hətta verdiyi tapşırıq və tövsiyələr küll halında həmin böyük dövlətçilik və siyasət məktəbinin möhtəşəm və mötəbər dərsliyidir. Beləliklə, görkəmli dövlət xadimi Heydər Əliyevin simasında böyük, əbədiyaşar müstəqil dövlətçilik siyasətinin nəzəriyyəsi və təcrübəsi vahid məcrada birləşir.

Görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının tarixini, mədəniyyətini, ədəbiyyatını bütün fəlsəfəsi ilə dərindən bilmiş və milli istiqlal uğrunda apardığı məsuliyyətli mübarizələrdə ədəbi-tarixi irsdən və təcrübədən bacarıqla istifadə etmişdir. Böyük siyasətdə ədəbiyyatdan yaradıcılıqla istifadə etməyin mükəmməl nümunəsini göstərən Heydər Əliyev həm də mənsub olduğu ölkənin milli maraqlara əsaslanan ədəbiyyat siyasətini də müəyyən etmişdir. Fikrimizcə, qüdrətli dövlət xadimi Heydər Əliyevin yarım əsrə yaxın apardığı böyük siyasətin böyük ədəbiyyatını və elmini yaratmaq Azərbaycan bədii və elmi təfəkkürünün borcudur. Bu, həm də dərin siyasi və elmi-ədəbi düşüncənin möhtəşəm sintezindən yaranmış Heydər Əliyev zəkasından doğan qeyri-adi dövlətçilik modelinin nəsildən-nəslə çatdırılması baxımından da zəruridir.

Məsələyə bu nöqteyi-nəzərdən yanaşdıqda Azərbaycan Milli Elmlər Akademiyası Humanitar və İctimai Elmlər Bölmələrinin əhatə etdikləri elmi-tədqiqat institutları əməkdaşlarının ulu öndər Heydər Əliyev siyasi irsini diqqətlə araşdırmaları və aktual mövzularda sanballı elmi əsərlər yazıb nəşr etdirməkləri qanunauyğun və zərurətdən doğan bir haldır. Bu həm də elm adamlarımızın ümummilli lider qarşısında yüksək borcu və hesabatıdır.

AMEA-nın Fəlsəfə İnstitutunun "Multikulturalizm və tolerantlıq fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyevanın xalqımızın görkəmli tarixi şəxsiyyəti və dünya şöhrətli dövlət xadiminə həsr olunmuş "Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat" monoqrafiyası da bu istiqamətdə aparılmış uğurlu elmi araşdırmalar sırasında ciddi maraq doğurur. Həmçinin də bu monoqrafiya ulu öndərin siyasi irsini fəlsəfi yöndən qiymətləndirən əhəmiyyətli tədqiqat əsəri kimi diqqəti cəlb edir.

Heydər Əliyevin mənalı və çoxcəhətli həyat və fəaliyyətinin bütöv elmi-fəlsəfi salnaməsi xarakterində olan bu geniş həcmli monoqrafiyada dünya siyasət elmi, onun müasir problemləri və elmi konseptual səciyyəsi, ən əsas məsələ olaraq isə Azərbaycan xalqının ümummilli liderinin siyasi irsi ən yeni materiallar əsasında məntiqi elmi müqayisə və yeni yanaşmalarla təhlil olunur, ulu öndərin yeritdiyi siyasətdə milli dövlət, milli lider, vətəndaş-mənəviyyat ideyası sistemli şəkildə və əhəmiyyətli dərəcədə elmi-obyektivliklə qiymətləndirilir.

Monoqrafiyada ilk dəfə olaraq Milli dövlət anlayışının müasir fəlsəfi şərhi verilmişdir. Bu zəmində Milli lider məfhumunun nəzəri mahiyyəti elmi cəhətdən əsaslandırılmışdır. Fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyeva görkəmli dövlət xadimi Heydər Əliyevin simasında fəlsəfi baxımından ümummilli liderlik konsepsiyası formalaşdırmağa çalışmışdır. Monoqrafiya Milli dövlət və Milli lider miqyasında əbədiyaşar dövlət xadimi Heydər Əliyevin siyasi dühasının fəlsəfəsini meydana qoyur. Ulu öndərin təkrarsız ümummilli liderlik missiyası və siyasi fenomen keyfiyyətləri, bu kontekstdə bu böyük dühanın siyasi kursu dolğun materiallar və peşəkar alim-tədqiqatçı elmi-məntiqi əsaslandırmaları vasitəsilə dəyərləndirilir.

Əlbəttə ki, Heydər Əliyev siyasi kursu bu böyük dühanın parlaq adını və çoxcəhətli fəaliyyətini, geniş dünyagörüşünü və mənalı irsini əhatə edən zəngin dövlətçilik təlimi, siyasi-ideoloji baxışlar sistemidir. Heydər Əliyev siyasi kursu - qlobal yanaşma ilə milli dəyərlərin vəhdətindən yoğrulmuş düşünülmüş yetkin təlimdir.

Heydər Əliyev siyasi kursu - milli dövlətçilik təliminin strategiyasından, xalqın inkişaf dialektikasının taktikasından ibarətdir. O, böyük siyasətin uzaqvuran topu, ağır artilleriyası idi.

Heydər Əliyev siyasi kursu - xalqı bir yumruq kimi birləşdirən, yaşadan, səfərbər edən və daha böyük gələcəyə aparan gerçəkçi siyasətin ifadəsidir.

Nəhayət, Heydər Əliyev siyasi kursu - cəmiyyət həyatının, ümummilli inkişafın əbədiyyət ünvanlı lokomotividir və fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyeva bu ideyanı bütün monoqrafiyada - əvvəldən axıra kimi faktlar, dəlillər, xüsusən də yeni ensiklopedik materiallarla əsaslandırmışdır.

Məlumdur ki, böyük sınaqlardan çıxmış Heydər Əliyev siyasi kursunun nüvəsini, cövhərini AZƏRBAYCANÇILIQ təlimi təşkil edir. Azərbaycançılıq çoxcəhətli istiqamətlərə malik olan Heydər Əliyev siyasi kursunun tac damarıdır. Müstəqil Azərbaycan isə universal zəkaya malik olan Heydər Əliyev dühasının şah əsəridir. Görkəmli dövlət xadimi Heydər Əliyev azərbaycançılıq siyasətini özünün dərin məzmunlu fəaliyyətinin bütün mərhələlərində əsas kimi götürmüş, həmin ümummilli ideyanın daha da möhkəmləndirilməsi işini həyatının mənasına, siyasətinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Məhz Heydər Əliyevin dolğun və ardıcıl siyasəti nəticəsində azərbaycançılıq ictimai-ədəbi mühitdə ümummilli hərəkat, siyasi müstəvidə isə dövlət ideologiyası mahiyyəti qazanmışdır.

Xatirə Quliyevanın ulu öndər Heydər Əliyevin siyasi-dövlətçilik kursunun əsasını təşkil edən azərbaycançılıq təliminə dair araşdırmaları yeni yanaşmaları ilə diqqəti cəlb edir. Monoqrafiyadakı "Milli tarixi inkişaf və Azərbaycançılıq", "Azərbaycançılıq - siyasi ideologiya", "Azərbaycançılıq çoxmədəniyyətlilik kontekstində" bölmələrində azərbaycançılıq təliminin konkret problemlər və istiqamətlər əsasında tədqiq edilib ümumiləşdirilməsi mühüm elmi nəticələrin əldə olunmasına şərait yaratmışdır.

Ulu öndər Heydər Əliyev təlimindəki vətəndaş-mənəviyyat konsepsiyasının araşdırılıb öyrənilməsi geniş mənada "Heydər - Xalq, Xalq - Heydər" birliyinin elmi-fəlsəfi cəhətdən dərkinə və şərhinə elmi töhfə vermişdir.

Bütün bunlara əsasən demək olar ki, yeni çap olunmuş və geniş oxucu kütləsinə təqdim olunan monoqrafiya Heydər Əliyevin dünyagörüşünü, qırx ildən artıq böyük bir dövrdə həyata keçirdiyi milli dövlətçilik missiyasını, müstəqil respublika ideyasını, xalqının ana dili, təhsili, elmi, ədəbiyyatı, mədəniyyəti üçün cəsarətli və cəfakeş xidmətlərini, ərazi bütövlüyümüz naminə apardığı mübarizəsini, eyni zamanda keşməkeşli ömür yolunu hərtərəfli surətdə və yüksək ehtiramla dəyərləndirir, başqa cür desək, həqiqi alim təfəkkürü ilə tarixə həkk edir.

Bəli! Heydər Əliyev elə nadir tarixi şəxsiyyətlərdəndir ki, həyatını bütünlüklə xalqına və ölkəsinə həsr etmişdir. Xalqın mənafeyini hər şeydən üstün tutmuş ulu öndərin "Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri atalar sözünə çevrilmişdir: "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam" - kimi fikirləri görkəmli dövlət xadimi Heydər Əliyevin azərbaycançılıq təliminin dərinliyini və dönməzliyini, əbədiyaşarlığını bütün ruhu ilə ifadə edir. Xatirə Quliyeva da azərbaycançılıq təliminə davamlı bir proses kimi baxmış və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdə apardığı məqsədyönlü siyasətin mahiyyəti haqqında ümumiləşdirilmiş fəlsəfi nəticələr çıxarmağa nail olmuşdur.

Hazırda Azərbaycan Respublikasında Heydər Əliyevin müstəqil dövlətçilik təlimi, azərbaycançılıq ideologiyası dünyada dəyişən və inkişaf edən reallıqlarla, zənginləşən yeni proseslərlə birlikdə ölkəmizdə yaradıcı şəkildə ardıcıl olaraq həyata keçirilir. Beləliklə, möhkəm bünövrələr, böyük sütunlar üzərində yeni və möhtəşəm Azərbaycan qurulur. Ölkəmizin Prezidenti İlham Əliyevin çoxcəhətli, məqsədyönlü və yorulmaz fəaliyyəti, dövlətçilik işinə çoxaspektli düşünülmüş yanaşmaları, analitik təfəkkürü, müdrik siyasəti, dərin düşüncəsi ilə müstəqil Azərbaycan dövlətçiliyinin yeni epoxası formalaşır.

Artıq hər kəsə yaxşı məlumdur ki, ulu öndər Heydər Əliyevin dövlətçilik təliminə uyğun olaraq ümummilli mənafenin, dövlətçilik maraqlarının daim üstün tutulması və yaradıcılıqla inkişaf etdirilməsi İlham Əliyev siyasətinin təməl prinsipidir. Prezident İlham Əliyevin siyasətində ən müxtəlif mövqelərdən, fərqli bucaqlardan ifadə olunan siyasi yanaşmaların hamısı Azərbaycançılıq fəlsəfəsində, Azərbaycanın inkişafı naminə aparılan qlobal işlərdə tamamlanır. Azərbaycançılıq bu böyük və müdrik siyasətin cövhərini təşkil edir. Monoqrafiyanın "İnamın təsdiqi" bölməsində zəngin faktlar və dəlillərlə möhtərəm Prezidentimiz İlham Əliyev XXI əsrdə müstəqil Azərbaycanın yeni siyasətini müəyyən edən, dünya siyasi arenasında təzə istiqamətlər açan, yol göstərən görkəmli siyasi lider olaraq yüksək qiymətləndirilir. Doğrudan da, Azərbaycan Respublikasının bacarıqlı dövlət başçısında bu tip yüksək siyasətçi məharətinin olması müstəqil dövlətin inkişafının və xalqın xoşbəxt həyatının böyük təminatıdır. Bu mənada yeni tarixi epoxada məhz İlham Əliyev kimi böyük siyasətlə yüksək idarəçiliyi özündə cəmləşdirən görkəmli bir dövlət xadiminin və mahir siyasətçinin Azərbaycana uğurla rəhbərlik etməsi ölkənin və xalqın tarixi şansıdır.

Beləliklə, "Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat" adlı monoqrafiya müstəqil Azərbaycan dövlətinə, milli dövlətçiliyimizə, inkişaf strategiyası və gələcək uğurlara optimist elmi-obyektiv baxışlar, yeni analitik təhlillər, yanaşmalar və qiymətləndirmələrlə yekunlaşır.

Tədqiqatçı-alimin sonda öz əsərini "dəryada damla" adlandırması tarixi şəxsiyyətin siyasi irsinin zənginliyi ilə əsaslandırılır ki, bu da real həqiqətə söykənir. Doğrudan da, bütün tədqiqatçıların ümumi fikri elə fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyevanın vurğuladığı kimi belədir: "Həyatını doğma vətəni Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş ulu öndər Heydər Əliyevin irsi və bütövlükdə həyat və fəaliyyəti bədii-obrazlı desək, dərin bir dəryadır. Bu irsdə əsas ideya Azərbaycan xalqı və Azərbaycan dövləti olsa da, həmin istiqamətdə onlarca, hətta yüzlərlə elmi əsərə istiqamət verəcək mövzular vardır".

Dahilik və zaman böyük siyasətin, böyük elmin və ədəbiyyatın əbədi problemidir. Bu ciddi və məsuliyyətli problemin görünən və görünməyən tərəflərinin dərindən öyrənilib ümumiləşdirilməsi bütün zamanlar üçün aktualdır. Görkəmli dövlət xadimi Heydər Əliyev və zaman anlayışı Heydər Əliyevin dövrü və zamanı düşüncəsini əhatə etməklə qalmır, əksinə, bu anlayış böyük dühaların öz ölkələrinin və xalqlarının inkişaf yollarında bütün zamanlar üçün gərəkli və əhəmiyyətli olduqlarını nümayiş etdirir.

AMEA-nın Fəlsəfə İnstitutunun "Multikulturalizm və tolerantlıq fəlsəfəsi" şöbəsinin müdiri, fəlsəfə üzrə elmlər doktoru Xatirə Quliyevanın "Heydər Əliyev siyasəti: milli dövlət, milli lider, vətəndaşlıq, mənəviyyat" mövzusunda monoqrafiyası ümummilli lider Heydər Əliyevin müstəqillik fəlsəfəsinin mahiyyətini açıb göstərən və yaradıcılıqla davam etdirilməsinə işıq salan qiymətli elmi əsərdir.

İnanıram ki, Heydər Əliyev-İlham Əliyev epoxasının fəlsəfi dərslərinə həsr edilmiş bu dəyərli monoqrafiya ölkəmizdə müstəqil dövlətçilik təliminin öyrənilməsini yeni elmi ideyalarla daha da zənginləşdirəcəkdir.

**İsa HƏBİBBƏYLİ**
**AMEA-nın vitse-prezidenti, akademik.**